

# Ulu Öndər Heydər Əliyev ziyası

## Azərbaycanın müstəqillik yoluna işıq saldı

*1991-ci il avqustun 30-da Azərbaycan Respublikası Ali Sovetinin növbədənkənar sessiyasında dahi Liderin təklifi ilə "Azərbaycan Respublikasının dövlət müstəqilliyini bərpa etmək haqqında" Bəyannamə qəbul olunub*

**Tarix boyu keşməkeşli yol keçən xalqımız öz istiqlaliyyəti, azadlığı uğrunda daim mübarizə aparmış, ötən əsrin əvvəllərində Şərqdə ilk demokratik respublika qurmağa nail olmuşdur. Gərgin, mürəkkəb ictimai şəraitdə yaranan Azərbaycan Xalq Cümhuriyyəti dövlətçilik tariximizin ən parlaq səhifəsi, xalqımızın azadlıq, müstəqillik arzularının carçısı idi. Müstəqil dövlətimiz cəmi 23 aydan sonra süqut etsə də xalqın azadlıq arzusu sönmədi, 70 il sovet imperiyasının tərkibində qalmağa məhkum olan xalq azadlıq ideyalarını yaşadaraq bir gün müstəqilliyinə yenidən qovuşacağına inandı və əsrin sonlarında ikinci dəfə müstəqillik bayrağını qaldırdı.**

XX əsrin sonlarında sovetlər birliyinin dağılması ilə ittifaqın tərkibindəki dövlətlərin müstəqil olmalarına əlverişli şərait yarandı. Lakin 80-ci illərin ikinci yarısında Moskva özünü böhran vəziyyətindən xilas etmək, ölkələrin müstəqillik mübarizəsini boğmaq üçün hər vasitəyə əl atır, dövlətlərin suverenliyinə mane olurdu. Təbii ki, Sovet İttifaqının mühüm coğrafi ərazisi olan Azərbaycanın da müstəqilliyini istəməyən mərkəz ölkə daxilində çaxnaşmalar yaradır, xalq arasında nifaq salır, milli münaqişələri qızışdırırdı. Digər tərəfdən isə ermənilərin ölkəmizə ərazi iddialarını, Qarabağ məsələsini ortaya atır, Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Qarabağın Ermənistana birləşdirilməsi siyasətini həyata keçirirdi. Öz torpaqlarını, konstitusiya hüquqlarını qorumaq üçün ayağa qalxan millətin azadlıq mübarizəsinin qarşısını almaq məqsədilə xalqa müsibətlər yaşadırdı. Artıq Azərbaycan xalqının himayədarı, hüquqlarının müdafiəçisi olan Heydər Əliyev məqsədli şəkildə siyasi hakimiyyətdən uzaqlaşdırılmışdı.

1990-1993-cü illərdə Naxçıvanda siyasi fəaliyyətə başlayan ulu öndər Heydər Əliyev Azərbaycanın müstəqil, demokratik və dünyəvi dövlət olması üçün mühüm tarixi qərarlar qəbul etdi. Heydər Əliyevin sədrliyi ilə keçən MR parlamentinin 1990-cı il 17 noyabr tarixli sessiyasında Muxtar Respublikanın rəsmi adından "sovet sosialist" sözləri çıxarıldı, "Naxçıvan Muxtar Respublikası" adlandırılması haqqında qərar qəbul edildi, Naxçıvan Muxtar Respublikasının ali qanunvericilik orqanı olan Ali Sovetin adının dəyişdirilərək "Ali Məclis" adlandırıldı, Azərbaycan Demokratik Respublikasının üçrəngli bayrağı Naxçıvan MR-in bayrağı kimi qəbul edildi. Heydər Əliyev Muxtar Respublikanın Ali hakimiyyət orqanında dəyişiklik edilməsinə, üçrəngli dövlət bayrağı və digər dövlət rəmzləri haqqında qərarlar qəbul edilməsinə nail oldu. Qanlı Yanvar faciəsinə siyasi qiymət verildi. 20 Yanvar Ümumxalq hüzn Günü, 31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəylik Günü elan olundu. 1991-ci il avqustun 30-da isə Azərbaycan Respublikası Ali Sovetinin növbədənkənar sessiyasında dahi liderin təklifi ilə "Azərbaycan Respublikasının dövlət müstəqilliyini bərpa etmək haqqında" Bəyannamə qəbul olundu. Məhz bu qərarla ulu öndər Heydər Əliyev ziyası Azərbaycanın müstəqillik yoluna işıq saldı. Vaxtilə istiqlaliyyətini qazanmış, onu yenidən bərpa etmək üçün isə bir əsrə yaxın mücadilə aparmış xalqımız bu tarixi məqamı müdrikcəsinə dəyərləndirdi, müstəqillik arzusunu reallaşdırdı.

Xalqımızın ali dövlət mənafeyinin rəhbər tutulduğu Bəyannamədə beynəlxalq birlik tərəfindən Azərbaycan Respublikasının 1918-ci ildən 1920-ci ilədək müstəqil dövlət kimi tanındığı qeyd olunmuş, ölkəmizin suverenliyi haqqında və iqtisadi müstəqilliyinin əsasları haqqında Konstitusiya qanunlarına əsaslanaraq milli mənsubiyyətindən və dini etiqadından asılı olmadan Azərbaycanın bütün vətəndaşlarının beynəlxalq hüquq normaları çərçivəsində insan hüquq və azadlıqlarına təminat verilmişdir. Bəyannamədə qeyd olunurdu: "...Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyü üçün təhlükəni aradan qaldırmağa çalışaraq, Azərbaycan Respublikasının təhlükəsizliyini və dövlət sərhədlərinin toxunulmazlığını təmin etmək kimi müqəddəs borcu rəhbər tutaraq, respublikanın bütün vətənpərvər qüvvələrinin sıx birləşməsinin zəruriliyini dərk edərək, Azərbaycan Respublikasının və onun xalqının mənafeyinə zidd olmayan beynəlxalq paktları, konvensiyaları və başqa sənədləri qəbul edərək, SSR İttifaqına daxil olan bütün respublikalarla dostluq münasibətlərini bundan sonra da saxlamağı arzu edərək, beynəlxalq birliyin üzvü olan dövlətlərlə bərabər hüquqlu münasibətlər yaratmağa hazır olduğunu bildirərək, Azərbaycan Respublikasının dövlət müstəqilliyinin Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsində, digər beynəlxalq hüquq paktlarında və konvensiyalarında təsbit edilmiş prinsiplərə müvafiq surətdə beynəlxalq birliyin üzvü olan dövlətlər və Birləşmiş Millətlər Təşkilatı tərəfindən tanınmasına ümid bəsləyərək Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpa olunduğunu elan edir".

XX əsrin sonunda yaranmış tarixi şərait Azərbaycana dövlət müstəqilliyini bərpa etmək imkanı verdi. 1991-ci il avqustun 30-da Ali Sovetin xalqın tələbi ilə çağırılmış növbədənkənar sessiyasında Azərbaycan Respublikasının dövlət müstəqilliyini bərpa etmək haqqında Bəyannamənin ardınca həmin il Ali Sovetin 18 oktyabr tarixli sessiyasında "Azərbaycan Respublikasının Dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktı yekdilliklə qəbul edildi. Bununla da xalqımızın tarixində yeni dövr başlandı. Lakin bu dövrün ilk illərində müstəqilliyini yenicə bərpa etmiş respublikamızın həyatında bir-birindən ziddiyyətli, mürəkkəb hadisələr baş verdi. Vəziyyət o həddə çatdı ki, istiqlaliyyəti uğrunda tarixin sərt sınaqlarına mətanətlə dözmüş, onu qazanmaq üçün hər cür məhrumiyyətlərə sinə gərmiş xalqımız müstəqilliyini itirmək təhlükəsi ilə üzləşdi. Belə ki, bir tərəfdən işğalçı Ermənistan ölkəmizə ərazi iddiaları irəli sürür, elan olunmamış müharibə aparır, digər tərəfdən ölkədə gedən siyasi çəkişmələr vətəndaş qarşıdurması yaradırdı. Bütün bunlar isə daxili və xarici düşmənlər tərəfindən xalqımızın müstəqilliyinin yenidən əlindən alınmasına hesablanmışdı.

Məhz belə bir zamanda, 1993-cü ildə dünyaşöhrətli dahi şəxsiyyət, görkəmli dövlət xadimi Heydər Əliyevin xalqın çağırışı ilə yenidən respublika rəhbərliyinə qayıdışı Azərbaycanın bir dövlət kimi dünyanın siyasi xəritəsindən silinməsinə aparan təhlükəli proseslərin, vətəndaş qarşıdurmasının, xaos və anarxiyanın, cəmiyyətdə artan iqtisadi, siyasi və mənəvi-psixoloji gərginliyin qarşısını aldı. Dövlət müstəqilliyini qoruyub saxlamaq mümkün oldu. Dahi liderin rəhbərliyi ilə respublikamızda ardıcıl islahatlar həyata keçirildi, qısa zaman ərzində Ermənistan-Azərbaycan münaqişəsində atəşkəs əldə edildi, ölkə iqtisadiyyatında bazar iqtisadiyyatı prinsipləri əsas götürüldü, dünya iqtisadiyyatına inteqrasiya təmin olundu. Azərbaycan müstəqillik yolunda inamla addımlamağa başladı.

Azərbaycana rəhbərliyinin hər iki dövründə respublikamızın intibahı, xalqımızın tərəqqisi üçün gərgin əmək sərf edən, şərəflə xidmət göstərən ümummilli lider Heydər Əliyevin adı hər zaman Azərbaycanla qoşa çəkilir və qərinələr, əsrlər ötsə belə bu, dəyişməyəcək. Çünki canından çox sevdiyi xalqının tarixində əvəzedilməz, misilsiz rol oynamış bu dahi şəxsiyyət müasir, müstəqil Azərbaycanın banisi, şərəfli tariximizin yaradıcısı və müəllifidir.

**Mehparə ƏLİYEVA,**
**"Respublika".**